# Dividend Siyasəti

Hazırkı Dividend Siyasəti Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və digər tətbiq olunan qanuvericiliyə, Bankın Nizamnaməsinə və Bankın daxili normativ sənədlərinə müvafiq olaraq işlənib hazırlanmışdır. Hazırki Dividend siyasətinin qəbul edilməsinin məqsədi dividendlərin verilməsi, ödənişlərin həcminin müəyyən edilməsi, qaydaları və müddətləri haqqında qərarın qəbul edilməsinin şəffaflığı və Bankın səhmdarlarına aydın mexanizminin müəyyən edilməsidir.

Dividend siyasəti Bankın idarə edilməsinin ümumi siyasətinin hissəsidir və AR qüvvədə olan qanunvericiliyi, Bankın daxili sənədləri ilə nəzərdə tutulan səhmdarlara hörmət və onların hüquqlarının ciddi qorunması ilə Bankın və onun səhmdarlarının dividend ödənişlərinin müəyyən edilməsi zamanı maraqlar balansına əsaslanır və Bankın kapitallaşmasının artımına və ona investisiya cəlbinin artırılmasına yönəldilmişdir. Dividendlərin ödənilməsi haqqında qərarla (elanla) hər bir kateqoriyanın bir səhminə hesablanma ilə dividendlərin həcmi müəyyən edilir. Elan olunmuş dividendlərin ödənilməsi Bankın vəzifəsidir. Bank dividendlərin alınması hüququna malik olan şəxslərin qarşısında bu vəzifələrin icra olunmamasına görə AR qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyır.

## Səhmdarlara dividendlərin verilməsinin əsas şərtləri

- Paylanması lazım olan təmiz gəlirin Bankda olması;
- AR qanunvericiliyi ilə nəzərdə tutulan dividendlərin ödənilməsinə məhdudiyyətlər, həmçinin Bankın üçüncü şəxslərlə, xüsusilə xarici maliyyə təşkilatları ilə bağladığı müqavilələrdə olan digər məhdudiyyətlərlə;
- Dividendlərin verilməsi zamanı Bankın şəxsi kapitalının kifayətliliyi AR banklarının ümumsahə normativlərindən aşağı olmayan normativlərinə riayət edilməsi;
- Bankın beynəlxalq kredit reytinqlərinin saxlanması (dəstəklənməsi);
- Müvafiq müddətdə Bankın maliyyə hesabatlığının auditinin aparılması;
- Bankın səhmdarlarının ümumi yığıncağının qərarı;
- Bankın öhdəlikləri üzrə defolta gətirə bilən ödənişlər zamanı defoltun yolverilməzliyi;
- Səlahiyyətli orqan tərəfindən müəyyən edilən erkən reaksiya tədbirlərinin tətbiq edilməsinin yolverilməzliyi.

## Dividendlərin ödənilməsi haqqında qərarın qəbul edilməsi qaydası

- Dividendlərin ödənilməsi, dividendlərin həcmi haqqında qərar (elan) Müşahidə şurasının tövsiyyəsi ilə Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul olunur.

- Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul olunan dividendlərin verilməsi haqqında qərar, həmçinin səsvermənin yekunları səhmdarların ümumi yığıncağında elan olunur ki onun da gedişatında səsvermə aparılır və ya Bankın rəsmi saytdında (yelo.az) yerləşdirilmə və KİV-də nəşr olunmaq yolu ilə səhmdarların ümumi yığıncağında iştirak hüququna malik olan şəxslərin siyahısına daxil edilən şəxslərə səsvermə haqqında hesabat formasında qeydiyyatçı tərəfindən səsvermə yekunları haqqında protokol tərtib olunduqdan 10 gün sonra çatdırılır.

## Sadə səhmlər üzrə dividendlərin ödənilməsi qərarı aşağıdakı məlumatlara malik olmalıdır:

- Bankın adı, yerləşdiyi yer, bank və digər rekvizitləri;

- Dividendlərin verilməsi müddəti;

- Bir sadə səhmə görə hesablanmada dividendin həcmi;

- Dividendlərin ödənilməsinin başlanma tarixi;

- Dividendlərin ödənilməsi qaydaları və forması;

Dividendlər səhmdarlara dividendlərin ödənilməsi haqqında qərarın qəbul olunması anından 30 gün ərzində ödənilir. Ödəniş nağdsız qaydada, səhmdarların, həmçinin hüquqi, eləcə də fiziki şəxslərin bank hesablarına köçürmə yolu ilə həyata keçirilir. Bir səhmdara hesablanmış dividendlərin məbləği müəyyən kateqoriyanın bir səhminə olan dividend məbləğinin bu kateqoriyanın səhminin səhmdara məxsus olan sayına vurulması yolu ilə müəyyən edilir. Səhmdarlara ödənilən dividendlərə verginin qoyulması qaydası AR vergi qanunvericiliyinə müvafiq olaraq hüquqi şəxslər üçün müəyyən edilir. Tələb olunmayan dividendlərin ödənilməsi anında vergi qanunvericiliyinə dəyişikliklər və əlavələr daxil edildiyi hallarda, bu cür tələb olunmayan dividendlərin ödənilməsi zamanı ödəniş anında qüvvədə olan vergi qanunvericiliyinə müvafiq olaraq verginin yenidən hesablanması aparılır.